

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (21.507)

27 may 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İkitərəfli münasibətlərimizin bütün sahələrdə yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycan ilə Türkiyənin müttəfiq, dost və qardaş ölkələr olduğunu deyib. Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində də inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində mühüm məsələlərin müzakirə ediləcəyini və bu sahədə əməkdaşlığımızın iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi işinə böyük töhfə verəcəyini deyib.

Zühtü Arslan Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə yüksək əlaqələrin mövcud olduğunu vurğulayaraq bu əlaqələrin məhkəmə və hüquq sistemi sahəsində də davam etdirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## "Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk demokratik respublika" mövzusunda elmi-praktik konfrans



***"Azərbaycan Xalq Cümhuriyyətinin Şərqdə ilk demokratik dövlət quruluşunu yaradaraq istiqlaliyyətimizi elan etməsi xalqımızın müstəqillik əzminin nümayişi idi".***

Bu fikir AMEA Naxçıvan Bölməsində "Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk demokratik respublika" mövzusunda keçirilmiş elmi-praktik konfransda səsləndirilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 98-ci ildönümü münasibətilə keçirilən konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açmışdır.

Bildirilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdı və xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini və mövcudluğunu yüksək qiymətləndirərək deyirdi: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycanın Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi".***

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun milli dövlət quruculuğu sahəsində fəaliyyəti" mövzusunda məruzə etmişdir. Məruzədə vurğulanmışdır ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tariximizin şanlı səhifələrindən biridir. Həmin dövrdə parlamentli respublikanın qurulması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir dövrün başlanğıcı idi.

Qeyd olunmuşdur ki, Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, bu, xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunun bütün dünyaya nümayişi idi. Bu qısa tarixi dövr Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərmişdir. Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan verməmişdir.

Bildirilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi "Respublika Günü" kimi qeyd edir.

Tədbirdə mövzu ilə bağlı çıxışlar olmuşdur.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

## Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin müsahibə mərhələsi keçirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 20 fevral 2016-cı il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsinə mayın 23-də başlanılıb.***

Komissiyadan aldığımız məlumata görə, müsahibələrdə ilk olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində, Dövlət Sosial Müdafiə Fondunda və tabe təşkilatlarında işləmək istəyən namizədlər iştirak ediblər. Mayın 24-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində və Dövlət Statistika Komitəsində, mayın 25-də Təhsil Nazirliyində, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində və Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində vakant vəzifələr üçün müsahibə mərhələsi keçirilib.

Müsahibə zamanı namizədə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, xarici dil biliklərinə, informasiya texnologiyalarından istifadə bacarığına və dünyagörüşünə uyğun suallar verilir. Müsahibə mərhələsində obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, komissiyanın və dövlət orqanlarının nümayəndələri iştirak edirlər. Həmçinin müsahibə prosesinin videoçəkilişi aparılır.

Komissiyadan verilən məlumata görə, 36 dövlət orqanı üzrə müsabiqəyə çıxarılan 294 vakant vəzifədən 140-nın tutulması üçün 634 namizəd sənəd təqdim edib. Test mərhələsində müvafiq keçid balını toplamış 141 namizəddən 134-ü müsahibə mərhələsində iştirak etmək üçün sənədlərini təqdim edib. Müsahibələr 25 dövlət orqanında vakant vəzifələr üzrə keçirilir. Bu mərhələyə hazırlıq üçün namizədlərə seçdikləri vəzifə üzrə hazırlaşmaları məqsədilə dövlət orqanları üzrə müsahibə proqramları komissiyanın rəsmi internet saytında yerləşdirilib və ümumi proqram, dövlət orqanı üzrə proqram və vəzifə üzrə proqramda ədəbiyyat siyahıları göstərilib.

Müsahibəyə hazırlıq məqsədilə 20 may 2016-cı il tarixdə komissiyanın akt zalında müstəqil ekspertlər, komissiyanın və dövlət orqanlarının nümayəndələri üçün seminar keçirilib.

Müsahibə başa çatdıqdan dərhal sonra namizədlərin yekun bal arayışları hazırlanır və şəxsi işlərinə əlavə olunur. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış namizəd haqqında məlumatlar komissiyanın müşayiət məktubu ilə müvafiq dövlət orqanına təqdim edilir. Müsahibənin nəticələri haqqında məlumatlar dərhal komissiyanın rəsmi internet saytında yerləşdirilir.

Digər dövlət orqanları üzrə müsahibələr komissiyanın rəsmi internet saytında yerləşdirilmiş qrafikə uyğun olaraq 31 may 2016-cı il tarixə kimi davam edəcəkdir.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin may ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 may tarixli qərarı ilə "Gömrük yığımlarının məbləğləri" təsdiq edilmişdir.

"Gömrük yığımlarının məbləğləri" Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən həyata keçirilən xidmətlərə və hüquqi hərəkətlərə görə alınan gömrük yığımlarını müəyyən edir.

Gömrük yığımlarının tətbiqi daxili bazarın müdafiəsi və fiskal məqsədlər üçün nəzərdə tutulmur, onların məbləği gömrük orqanları tərəfindən göstərilən xidmətin təxmini dəyərini əks etdirir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 may tarixli 51 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları" təsdiq edilmişdir.

Bu Qaydalar Naxçıvan Muxtar Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, muxtar respublika ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə dövlət səhiyyə müəssisələri tərəfindən tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsini tənzimləyir. Göndərişlər onlara tibbi xidmət göstərən poliklinikalar, stasionar müalicədə olan şəxslərə isə müalicə aldıqları stasionar səhiyyə müəssisələri tərəfindən verilir.

Həmin tarixdə qəbul edilmiş 52 nömrəli qərarla isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 14 mart tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də dəyişikliklər edilmişdir.

Bundan başqa, 2016-cı ilin 18 may tarixində qəbul edilmiş 53 nömrəli digər bir qərarla Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 20 aprel tarixli 32 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"nda dəyişiklik edilmişdir.

Həmin tarixdə qəbul edilmiş 54 nömrəli qərarla Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 avqust tarixli 56 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nda və 55 nömrəli qərarı ilə isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 oktyabr tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişikliklər edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www. huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Gülüstan türbəsində son tamamlama işləri aparılır



Naxçıvan ərazisi qədim abidələr və maddi-mədəniyyət nümunələri ilə zəngindir. Belə abidələrdən biri də Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən və böyük Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarı olan Gülüstan türbəsidir. Muxtar respublikamızda tarixi abidələrin qorunmasına göstərilən dövlət qayğısı XII əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindən sayılan bu türbəni də əhatə edib. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci il tarixli "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncamının icrasına uyğun olaraq, 2015-ci ilin sonlarından burada bərpa işlərinə başlanılıb.

Ötən müddətdə "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən müxtəlif təsirlər nəticəsində üst örtüyü dağılmış türbə bərpa olunub, abidənin ətrafı abadlaşdırılıb. Türbənin ətrafı dəmir məhəccərlə çəpərlənərək əraziyə keçid üçün qapı qoyulub. Bundan əlavə, ərazidə memarlıq abidəsinə xidmət üçün birmərtəbəli inzibati bina da inşa olunub.

Qeyd edək ki, Culfa rayonu ərazisindəki Gülüstan türbəsinin elmi əsaslarla bərpa olunması bölgədə turizmin inkişafına da öz təsirini göstərəcəkdir.

**Xəbərlər şöbəsi**

# Dövlət himni milli birliyimizin rəmzidir

*Dövlət himni müstəqilliyin musiqi və sözlə ifadə edilən müqəddəs simvolu, rəmzi və atributudur. Məhz dövlətçilik baxımından müqəddəslik və önəmliliyinə görə dövlət himnini obrazlı şəkildə hər bir dövlətin, millətin, ölkənin musiqi bayrağı adlandırırlar.*

Azərbaycan xalqının mənəvi sərvətlərindən biri də dövlət himnidir. Dövlət himni əsas dövlətçilik atributlarımızdan biri olmaqla yanaşı, milli birliyimizin sözlə və musiqi ilə ifadə edilən şah əsəridir. Himnimiz milli dövlət bayramlarında, tarixi günlərdə, rəsmi mərasimlərdə, yerli və beynəlxalq tədbirlərdə, olimpiya oyunlarında, dünya, Avropa və ölkə çempionatlarında, təhsil müəssisələrində mövcud qanunvericilikdə göstərilən şəkildə hər zaman ayaq üstə, böyük coşqu və ehtiramla oxunur. Bu da dövlət himninə olan sevgi və hörmətimizi, Vətənimizə son dərəcə bağlı olduğumuzu nümayiş etdirir. Musiqisi dahi bəstəkarımız Üzeyir Hacıbəyova, sözləri isə böyük şairimiz Əhməd Cavada məxsus olan himnimiz insanları, həqiqətən də, qəhrəmanlığa, tarixinə, soykökünə bağlılığa, Vətən uğrunda mübarizəyə səsləyir. Ümummilli liderimiz Heydər Əliyevin dövlət rəmzləri, xüsusilə himnimiz barədə fikirləri olduqca qiymətlidir: ***“1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz, qanunla istifadə etdiyimiz dövlət himnidir və bir də Azərbaycanın dövlət bayrağıdır... Mən xarici ölkələrdə ziyarətlərdə olarkən, Azərbaycanın və həmin dövlətin himni çalınarkən, çox böyük qürur hissi keçirirəm. Həmin ziyarətlərimdə məndə, bəlkə də, ən böyük əhval-ruhiyyə yaradan Azərbaycanın bayrağı altında Azərbaycanın himninin çalınmasıdır”.***

1992-ci il mayın 27-də Milli Məclis “Azərbaycan Respublikasının Dövlət Himni haqqında” Qanun qəbul etmişdir. Qanuna əsasən, 1919-cu ildə bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş “Azərbaycan Marşı” Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq olunmuşdur. Müvafiq Konstitusiya qanunları və “Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə” ilə dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzi, dövlət himninə dərin ehtiram bəsləmək isə onun hər bir vətəndaşının vətənpərvərlik borcu kimi təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Dövlət Himni istər ideya məzmunu, istərsə də musiqisinin zənginliyi baxımından milli ideologiyamızın aparıcı amili olan Azərbaycançılığı, Vətənçiliyi, Vətən sevgisini və vətənpərvərlik hisslərini, dövlət müstəqilliyini, Vətənə, millətə, dövlətə, dövlətçiliyə sədaqət ideyasını parlaq şəkildə əks etdirir.

Azərbaycan marşlarının melodiyası sadə, yaddaqalan olmaqla yanaşı, məzmun baxımından da coşqun və mübariz ruhludur. Dövlət himnimizdə də əsərin şeiriyyəti musiqi ritminə tabe edildiyindən, onun musiqisi səslənən kimi himnin mətni sanki bulaq suyu kimi çağlayır. Onun əzəməti, coşqunluğu, mübariz ruhu da məhz musiqi ilə qəlblərə yol tapır. İnsanların qanını Vətən sevgisi, millət duyğusu ilə coşdurur, adamları doğma Azərbaycanın birliyi, bütövlüyü, bölünməzliyi uğrunda mübarizəyə səsləyir. Himnimiz səslənəndə hər birimizdə milli ruh yüksəlir, vətənpərvərlik, milli iftixar və qürur hissi coşub-daşır.

Azərbaycan Respublikasının Dövlət Himninin mətni dərsliklərin birinci səhifəsində dərc olunur. Ümumtəhsil məktəblərində, texniki- peşə, orta ixtisas məktəblərində, ali məktəblərdə və başqa tədris müəssisələrində yeni dərs ilinin birinci saatı Azərbaycan Respublikasının Dövlət Himninin öyrənilməsinə və ifasına həsr edilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev himnimizə dərin ehtiram bəsləyirdi. Ulu öndərin 1998-ci il martın 13-də imzaladığı “Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında” Sərəncamda deyilir: ***“Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir”.***

Bu gün uşaqdan tutmuş böyüyə qədər hər kəs himnimizi əzbər bilir, sevə-sevə oxuyur. Hər bir azərbaycanlı dövlət himnimizi ali mənəvi irs kimi dəyərləndirir, dövlət atributu kimi ona dərin ehtiram bəsləyir.

**“Şərq qapısı”**

# “Naxçıvan – bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalının açılış mərasimi keçirilib

*Mayın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsində “Naxçıvan – bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalının açılış mərasimi olub.*





Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək deyib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkə həyatının bütün sahələri kimi, mədəniyyət sahəsində də əsl intibaha nail olunub. Ulu öndər tərəfindən əsası qoyulan mədəniyyətə qayğı və mədəni inkişaf siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə məqsədyönlü tədbirlər görülüb, tarixi-mədəniyyət abidələri bərpa olunub və ya yenidən qurulub, mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilib.

Qeyd olunub ki, rəssamların fərdi sərgilərinin açılması, Azərbaycan boyakarlıq sənətinin nümayəndələrinin albom-kataloqlarının hazırlanıb nəşr etdirilməsi Naxçıvan Muxtar Respublikasında təsviri sənətin səviyyəsini, yaradıcılıq axtarışlarının istiqamətlərini müəyyənləşdirən mühüm amillərdir.

Vurğulanıb ki, “Naxçıvan–bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalı da Naxçıvanın tarix və mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Ülviyyə Həmzəyeva tədbir iştirakçıları adından festivalın keçirilməsinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək “Naxçıvan – bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalının qədim diyarımızın zəngin tarixi və bu günü ilə səsləşən gözəl mədəniyyət və sənət bayramı olduğunu deyib. Qeyd edib ki, Naxçıvanda istedadlı rəssamların sərgilərinin keçirilməsi ənənə halını alıb.



“Naxçıvan – bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalının açılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra muxtar respublikanın musiqi kollektivlərinin çıxışları olub.

Sonra festivalın yaradıcılıq hissəsinə start verilib. Festivalda 7 ölkədən 52 iştirakçı var. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin, Naxçıvan Müəllimlər İnstitutunun Təsviri incəsənət müəllimliyi ixtisasının müəllim və tələbələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinin üzvləri, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin şagirdləri tanınmış rəssamların iş proseslərini izləyiblər. Rəssamlar sehrli fırçaların, rənglərin dili ilə düşüncələrini ifadə etməyə nail oldular. Naxçıvanın simvoluna çevrilən Haçadağ, Əlincəqala rəssam təxəyyülünə məxsus çalarlarla iştirakçıların qəlbinə yol tapdı.

Bu gün Heydər Əliyev Sarayında festivalda iştirak edən rəssamların çəkdikləri əsərlərdən ibarət sərgi təşkil olunacaqdır.

**✍ Sara ƏZİMOVA**

# Muzey bələdçiləri üçün seminar-treninq



***Heydər Əliyev Muzeyində muxtar respublikada fəaliyyət göstərən muzeylərin bələdçiləri üçün seminar-treninq keçirilib.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin aparıcı məsləhətçisi Aygün Hüseynova iştirakçıların diqqətinə çatdırıb ki, ötən ildən başlayaraq muzey bələdçilərinin muxtar respublikanın müxtəlif bölgələrində yerləşən muzeylərlə tanışlığı təmin edilir. Bu seminar-treninqlərin keçirilməsində əsas məqsəd ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması, muzeylərlə əlaqələrin inkişafına kömək göstərmək, muzey bələdçilərinin nəzəri və praktik səviyyəsini yüksəltməkdir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən, son iki ildə qədim diyarımızda bir neçə muzeyin yaradılması bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter aldığının göstəricisidir.

Vurğulanıb ki, görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Muzeylərimizə hazırlıqlı, bilikli, xarici dilləri bilən bələdçilərin cəlb olunması vacib məsələlərdəndir. Çünki muzeyə gələn insanları qarşılayan və onlara bu mədəniyyət ocağı haqqında məlumat verən, ilk növbədə, bələdçilərdir. Muzey bələdçiləri onlara verilən sualları ətraflı cavablandırmalı, etik qaydalara əməl etməklə muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdırlar.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin bələdçisi Sevinc Səbzəliyeva “Muzey bələdçisinin etik davranış qaydaları” mövzusunda danışıb. Bildirilib ki, muzey bələdçiləri müxtəlif səviyyəli insanlarla, məktəbli və tələbələrlə, yaşlı nəsillə işləməyi bacarmalıdır. Muzey bələdçisi hər bir vətəndaşa qarşı diqqətli və nəzakətli olmalı, muxtar respublikada baş verən yenilikləri bilməli, muzeyə gələnlərin suallarını diqqətlə dinləyib elmi əsaslarla cavablandırmaq bacarığına malik olmalıdır.

Sonda Heydər Əliyev Muzeyinin ekspozisiyasına baxış olub və ekskursiyanın müzakirəsi keçirilib.

**Əli RZAYEV**

*Naxçıvan Dövlət Universitetində 2015-2016-cı tədris ilində Tələbə Elmi Cəmiyyətinin xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş ümumuniversitet elmi konfransı keçirilib.*

# Tələbə Elmi Cəmiyyətinin yekun konfransı

Plenar iclası giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, tələbələrin elmi-tədqiqat işlərinin təşkili və əlaqələndirilməsi vəzifələrini yerinə yetirən Tələbə Elmi Cəmiyyəti istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılmasında mühüm rol oynayır. Bu cəmiyyət tələbələrin nə qədər bilikli və bacarıqlı olmalarını nümayiş etdirmələri baxımından çox önəmlidir.

Universitetin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti və aparılan elmi-tədqiqat işləri haqqında məlumat verib.

Bildirilib ki, hər tədris ilinin başlanğıcında fakültələr üzrə Tələbə Elmi cəmiyyətlərinin sədrləri və üzvləri seçilir, tələbələrə müxtəlif mövzular təqdim edilir, elmi rəhbərlər təyin olunur. Tədris ilinin sonuna kimi tələbələr öz elmi işləri üzərində çalışır, araşdırmalar aparırlar. İlin sonuna yaxın fakültələrdə yekun konfranslar keçirilir. Daha bacarıqlı tələbələr seçilərək diplom və hədiyyələrlə təltif edilirlər. Həmçinin qaliblər Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil olunan tələbə elmi konfranslarında iştirak etmək hüququ qazanırlar.

Müsabiqə uçotu və audit ixtisası üzrə III kurs tələbəsi Aysel Əsgərli “FOREX-in mahiyyəti, əhəmiyyəti və Azərbaycan Respublikasında təşkili xüsusiyyətləri” mövzusunda məruzə edib.

Konfrans 46 bölmə üzrə işini davam etdirib.

**Nərmin CABBAROVA**

# Dünyada bənzəri olmayan təbii şəfa mənbəyi – *Duzdağ Fizioterapiya Mərkəzi* *(Reportaj)*

***Duzdağ Fizioterapiya Mərkəzi barədə çoxdan idi ki, reportaj hazırlamaq istəyirdim. Bunun üçün bir gün bu şəfa ocağında qalmaq, dünyada, demək olar ki, bənzəri olmayan mərkəzin həkim heyəti və burada müalicə alan xəstələrlə görüşüb, onlarla söhbət etmək niyyətində idim. Nəhayət, ötən günlərdə Duzdağ Fizioterapiya Mərkəzinə gedə bildim...***



Soraqlaşıb öyrəndim ki, hər gün saat $17^{00}$-da, $18^{00}$-da və $18^{30}$-da Naxçıvan şəhərindən mərkəzə, oradan isə hər səhər saat $7^{00}$-da, $8^{00}$-da və $8^{30}$-da Naxçıvan şəhərinə avtobus marşrutları hərəkət edir. Marşrutun keçdiyi yerləri və dayanacaqlarını da öyrəndim. Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Mərkəzi Uşaq Xəstəxanasının, Naxçıvan şəhərindəki avtovağzalın, Əliabad qəsəbəsinin yaxınlıqlarındakı dayanacaqlardan avtobusa minib şəfa ocağına getmək olar. Saat $17^{00}$-da hərəkət edən nəqliyyat vasitəsini seçdim. Avtovağzalın yanındakı dayanacaqda gözlədim. Bir azdan üzərində "Duzdağ" yazılan avtobus gəldi. Saata baxdım. Tam vaxtında gəlmişdi. Təəccüblənmədim. Çünki bu gün muxtar respublikanın sakinləri hər şeyin tam vaxtında olmasını artıq gündəlik yaşam tərzi kimi qəbul ediblər. Xarici qonaqlarımızın dili ilə desək, bu gün muxtar respublikada bütün işlər alman dəqiqliyi ilə aparılır, lazımi addımlar vaxtında atılır. Səmimi desək, bu işlər ancaq tanınmış Avropa ölkələrində belə olur. Bəlkə də, ona görə buraya qonaq gələn həmkarlarımın bəziləri muxtar respublikaya "kiçik Avropa" deyirlər. Təbii ki, Naxçıvan şəhərinin və muxtar respublikanın bütün yaşayış məntəqələrinin abadlaşdırılması, hər tərəfin gül-çiçəyə qərq olması, təmizlik, səliqə-sahman və digər mühüm amillər də bu qənaətə gəlməyə əsas verir... Deyəsən, mətləbdən çox uzaqlaşdım...

Avtobusda ətrafa göz gəzdirdim və düşündüm ki, elə buradaca mərkəzdə müalicə alan xəstələrlə söhbət edim, təəssüratlarını öyrənim. Yanımda əyləşən 56 yaşlı Kazım Kərimovla söhbətə başladım. Öyrəndim ki, Kazım müəllim Ağstafa rayonunun Mollacəfərli kəndindən gəlib. İkinci dəfədir, Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu qəbul edir. Onun sözlərinə görə, keçən il bu vaxtı çox ağır vəziyyətdə idi, nəfəs ala bilmirdi. Mərkəzdə üç gün qaldıqdan sonra bu problemdən xilas olub. Müalicədən sonra bir il özünü tam gümrah, sağlam hiss edib. Həkim məsləhəti ilə bu il yenə Duzdağa müalicəyə gəlib. Kazım Kərimov buranı həm şəfa ocağı, həm də ziyarətgah hesab edir. Onun fikrincə, əgər yüzlərlə insan burada şəfa tapırsa, onda ora bəşəriyyətin ziyarətgahı hesab edilə bilər. Duzdağ Fizioterapiya Mərkəzi də məhz belə bir məkandır.

Yol abad, söhbət şirin olduğuna görə, bir də baxdıq ki, mənzil başına çatmışıq. Avtobusdan düşdük. Budur, Duzdağ Fizioterapiya Mərkəzindəyik. Azərbaycanın qədim diyarı Naxçıvanın rəmzlərindən biri olan və təbii ehtiyatları 90 milyon ton təşkil edən nadir duz mağarasının şəfaverici xüsusiyyətinin aşkar olunması, həqiqətən də, bu gün minlərlə insanın ümid yerinə çevrilib. Astma xəstəliyinin müalicəsi üçün illərdən bəri primitiv üsullarla istifadə edilən mağara hazırda günün tələblərinə tam cavab verən müasir sağlamlıq mərkəzidir.

Duzdağ Fizioterapiya Mərkəzinin girişində qarşılaşdığımız baş həkim Ruslan Süleymanovla salamlaşırıq və bu barədə söhbət edirik. Ruslan həkim deyir ki, son vaxtlar şəfa ocağına müraciət edənlərin sayı xeyli artıb. Bu da səbəbsiz deyil. Çünki mərkəzdə bu gün çox geniş yayılmış tənəffüs yollarının qeyri-spesifik xəstəlikləri – allergik rinit, pollinoz, astmanın atopik, həmçinin infeksion allergik forması, eləcə də xroniki bronxitin müxtəlif formaları müalicə olunur.

Bu il ərzində 600-dək xəstə mərkəzə müraciət edib, onların 40 nəfəri xarici ölkə vətəndaşıdır. Onlar arasında Ukrayna, Rusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə, İran, Fransa, Finlandiya, Çin, Gürcüstan, İsveçrə və digər ölkələrdən gələn xəstələr vardır. Baş həkim bildirir ki, biz 350 xəstəni eyni vaxtda qəbul edə bilərik: – Bizim çatışmayan heç nəyimiz yoxdur. Üç maşınımız var. Onlardan ikisi sanitar maşın, biri isə avtobusdur. Həmçinin xəstələrin muxtar respublikamızın gəzməli-görməli yerlərini, tarixi abidələrini, muzeylərini gəzmələri üçün həftənin 2-ci, 5-ci günləri Naxçıvan şəhərinə, eləcə də muxtar respublikanın rayonlarına ekskursiyalar təşkil edirik.







Ruslan həkimin sözlərinə görə, mərkəzdə spleoterapiya Ukraynanın Ujqorod xəstəxanasının metodik göstərişlərinə uyğun aparılır. Xəstələr əvvəlcə 2-3 gün xəstəxana ərazisinə adaptasiya olunurlar. Bundan sonra axşam saat $18^{00}$-dan səhər saat $8^{00}$-dək böyüklər 16-20 seans, uşaqlar isə 10-15 seans yeraltı şöbədə olurlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 70-75 faiz, uşaqlarda isə 90-95 faiz yaxşılaşma qeydə alınır. Böyüklərdə müalicə effektinin 75 faiz civarında olmasının səbəbi budur ki, onlarda uzun müddət davam edən xəstəliyin təsiri nəticəsində orqanizmdə bəzi fəsadlar ortaya çıxır. Belə olan halda xəstəlik sağalsa belə, həmin fəsadlar bir müddət özünü göstərir. Xəstələr şaxtada qalmaqla bərabər, lazım gələrsə, bəzi dərman preparatları, fizioprosedurlar alırlar, müalicəvi bədən tərbiyəsinə cəlb olunurlar.

Maraqlı məqam ondan ibarətdir ki, əgər müalicə olunan xəstə altı aydan və ya 1 ildən sonra təkrar müalicəyə gəlməsə, onda xəstəliyin kəskinləşməsi müşahidə edilir. Ona görə də birinci dəfədən xəstəliyin əlamətlərinin 100 faiz yox olması heç kəsi aldatmasın. Yəni səhlənkarlığa yol vermək olmaz. Müalicəni həkimin müəyyən etdiyi müddətdə aparmaq zəruridir. Uşaqlarda müalicə başladıqdan sonra 5-6 gündən, böyüklərdə isə 13-14 gündən sonra yaxşılaşma müşahidə olunur. Ola bilsin ki, yaxşılaşma 1 ay sonra özünü göstərsin. Əsas odur ki bu günədək müalicə müddətində xəstələr gündən-günə özlərini daha da yaxşı hiss edirlər. Xəstəliyin ağırlaşma halı isə indiyədək qeydə alınmayıb.

Xəstələrlə söhbət etmək üçün Ruslan həkimdən xahiş edirəm ki, onların palatalarında bir gecə qalmağıma icazə versin.

Fizioterapiya Mərkəzinin yeraltı hissəsini gəzirəm. Burada işıqlandırma sistemi yüksək səviyyədə qurulub. Mağaraya daxil olan kimi duzun spesifik iyini hiss edirsən. Sanki birdən-birə nəfəsalma asanlaşır. Yeraltı hissədə iki qadın, iki kişi, bir uşaq palatası var. Buradakı duz qatının qalınlığı 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

Onu da deyək ki, Polşanın Krakov şəhərində, Ukraynanın Ujqorod şəhərinin Solotvino qəsəbəsində, o cümlədən Qırğızıstanda da duz şaxtası var. Ancaq bizdəki Duzdağ öz müalicəvi əhəmiyyətinə görə digərlərindən bir neçə cəhətdən üstündür. Məsələn, bunlar arasında ən yaxşı müalicə ocağı kimi tanınan Ukraynadakı xəstəxana 206 metr yerin dərinliyində yerləşdiyindən xəstələr buraya liftlə enməli olurlar. Bu isə təzyiqin birdən-birə dəyişməsinə və xəstələrin səhhətinin pisləşməsinə gətirib çıxarır. Bu şaxtada rütubətin, partlayıcı gücə malik metan kimi zəhərləyici qazların normadan çox olması öz təsirini göstərir. Naxçıvandakı şaxtalar isə dağın altında horizontal şəkildə yerləşdiyindən bu kimi halların baş verməsi mümkün deyildir. Burada temperatur sabitdir, nisbi rütubət aşağıdır, havada zərərli qazlar yoxdur. Buraya gələn xəstələrin, təxminən, 300 metr məsafəni qət etməsi isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır.

Şaxtadakı skamyalarda əyləşən xarici ölkə vətəndaşlarına yaxınlaşıram. Məlum olur ki, onlar bura Rusiya Federasiyasının paytaxtı Moskva şəhərindən gələn Piliyevlər ailəsidir. Albert Timuroviç, Lipiya Safarbekovna və Madina Sultanovna burada onlar üçün yaradılan şəraitdən razılıqlarını ifadə edirlər, xidmətin yüksək səviyyədə olduğunu bildirirlər. "Duzdağ" otelində qaldıqlarını deyən qonaqlar qeyd edirlər ki, müalicə onlara çox yaxşı təsir göstərir, qısa zamanda səhhətlərində müsbət dəyişikliklər hiss ediblər. Onların fikrincə, Duzdağ Fizioterapiya Mərkəzinin müxtəlif dillərdə fəaliyyət göstərən internet saytı olsaydı, yəqin ki, bura daha çox xarici ölkə vətəndaşı müalicə üçün müraciət edərdi.

Moldovadan Raisa Antonovna və Rozvan Nikolyeviç, Özbəkistandan Nanə Əsgərova, Tacikistandan Dilrabo Yunusova, Türkiyədən Emine Özdemir, İrandan Mansor Amin və Mohsan Morofarizadə, Gürcüstandan Diləfruz Qurbanova da Duzdağ Fizioterapiya Mərkəzində aldıqları müalicənin müsbət nəticələrindən və qədim Naxçıvanın onları heyran etməsindən danışırlar. Bildirirlər ki, ölkələrində xəstəliklərinin sağalması üçün çox çalışıblar, ancaq xeyri olmayıb. Duzdağda isə elə bil gözəgörünməz bir qüvvə insana hər gün şəfa verir. Artıq onlar özlərini tam sağlam hiss edirlər. Ona görə də bu şəraiti yaradanlara dərin minnətdarlıqlarını bildirirlər.

Azərbaycanın müxtəlif rayonlarından gələn xəstələrlə də söhbət edirəm. Bəxtiyar Mustafayev Bərdə rayonundan gəlib, 40 yaşı var. Deyir ki, astma xəstəliyinə görə o, əvvəllər müxtəlif müalicə üsullarından istifadə edib. Ancaq heç bir təsiri olmayıb. Əksinə, bəzən xəstəliyi daha da ağırlaşıb. İlk dəfə 2014-cü ildə bura gəlib və həmin il artıq dərmanlardan istifadə etməyə ehtiyac qalmayıb. Həkim məsləhəti ilə ötən il və bu il növbəti müalicə kursları keçib. İndi özünü çox yaxşı hiss edir.

Balakən rayonundan Gülarə Xanlayeva da bildirir ki, o, astma xəstəliyindən 20 ildir, əziyyət çəkirdi:

– Oğlum, sözün açığı, bu yaşda bir daha sağalacağıma inamım qalmamışdı. Bəzən eşidirdim ki, Naxçıvanda belə bir müalicə mərkəzi var. Ancaq o qədər ümidimi itirmişdim ki, buna da inanmaq istəmirdim. Nəhayət, qohumlarımın təkidi ilə Naxçıvana gəldim. Duzdağ Fizioterapiya Mərkəzinə üz tutdum. Burada məni gülərüzlə qarşıladılar, müalicə olunmağım üçün hər cür şərait yaratdılar. 5-6 gündən sonra xeyli yaxşılaşdığımı hiss etdim. İndi isə lap yaxşıyam. Çox sağ olsunlar. Qurub-yaradanlar var olsunlar.

Bu zaman söhbətə əslən Qubadlıdan olan və hazırda Sumqayıt şəhərində yaşayan Murad İmaməliyev qoşulur. O deyir:

– Mən də 10 ildir, xəstəyəm. Bura ilk dəfədir ki, gəlirəm. Elə ilk günlərdən səhhətimdə dəyişiklik hiss etdim. Əvvəllər nəfəs ala bilmirdim, boğulurdum. Belə olanda hərəkət də edə bilmirdim. Sanki iflic olurdum. Dərmanlar isə çox da fayda vermirdi. Müvəqqəti keçirdi, sonra eyni şeylər təkrarlanırdı. İndi, şükür, bu şəfa ocağını tez-tez gəzməyə çıxıram. Palatalara gedən yolun bir hissəsi yoxuşdur, oranı elə sürətlə çıxıram ki, təəccüblənirəm. Elə bil xəstə olan mən deyiləm. Bu şəraiti bizə yaradanlara Allah uzun ömür, cansağlığı versin.

Rusiyanın Tümen vilayətinin Noyabrsk şəhərində yaşayan və əslən Masallı rayonundan olan Telman Əliyev, Bakı şəhərinin Suraxanı rayonundan Ulduz Əliyeva, Balakən rayonundan Camal Ramazanov və Abdülhəmid Qaracayev də mərkəzin çox faydalı müalicə təsirinə malik olduğunu vurğuladılar. Onlar dedilər ki, Naxçıvanın havasının təmizliyini təyyarədən enərkən hiss ediblər. Burada nəfəs almaq sanki asanlaşıb. Sonradan öyrəniblər ki, Naxçıvanın havasında nəmlik faizi aşağı olduğundan bu, astma xəstələrinə müsbət təsir göstərir.

Mərkəzdə müalicə alan xəstələrlə söhbət etdikcə vaxt da sürətlə keçir. Burada müalicə kursu keçən uşaqlarla görüşmək istəyirəm. Bakı şəhərinin Nəsimi rayonunun 14 yaşlı sakini Hüseyn Hacıyevin, Yasamal rayonundan 12 yaşlı İsmayıl Ağayevin, Nihad Ağayevin və Şəki rayonundan 11 yaşlı Elvin Xəlilovun başları şahmat oynamağa qarışıb. Onlarla salamlaşıram. Uşaqlardan müalicələrini necə getdiyini soruşuram və hamısı eyni cavabı verir: "Əla gedir. Çox yaxşılaşmışıq".

Öyrənirəm ki, Nihad birinci dərəcəli şahmatçıdır. Onunla şahmat oynamağıma razılıq verir və qısa zamanda mən mat oluram. Şahmatda məni mat etməkdən çox məmnun görünən Nihad balacalara xas olan əda ilə kəlməni kəlməyə calayaraq dostlarının adından minnətdarlıq edərək deyir: "Burada çox yaxşı müalicə olunuruq. Mən də, dostlarım da özümüzü sağlam hiss edirik. Özümə söz vermişəm ki, buradan qayıdandan sonra bir daha xəstələnməyim. Bir də buradan uzaqda olsam da, mənim sağalmağıma kömək edənlərə hər gün minnətdarlıq edəcəyəm".

...Bir az sonra xəstələr yatmaq üçün palatalara yollanırlar. Əvvəllər nəfəs almaqda çətinlik çəkən insanlar burada özlərini çox rahat hiss edirlər. Həqiqətən də, havasız, nəfəssiz qalmaq çox çətin dərddir. Bəlkə də, ona görə aqillər dua edərkən "İlahi, bizi heç vaxt havasız, susuz və Vətənsiz qoyma!" – deyirmişlər...

Səhər açılır. Artıq Naxçıvan şəhərinə getməliyəm. Buradan ilk hərəkət edən avtobusa minirəm. Mənimlə birlikdə Naxçıvan şəhərinə gələn xəstələrin simasında sevinc hisslərini duymamaq mümkün deyil. Necə də olmasın? Hər gecə yuxuda da əziyyət çəkən bu insanlar bu gün rahat yata biliblər...

Yolboyu düşünürəm. Bəşəriyyətin beşiyi Naxçıvan, həqiqətən də, sirli-sehrli bir diyardır. Bəlkə, ona görədir ki, qədim oğuz yurdunun tarixi, heyrətamiz təbiəti həmişə insanları cəlb edib. Duzdağ mağarası isə Allahın bəşəriyyətə bir lütfüdür. Təbii şəfa mənbəyinin Naxçıvanda yerləşməsi də təsadüfi ola bilməz. Axı Nuh Peyğəmbərin diyarı olan Naxçıvan tarixən bəşəriyyətin xilas yeri kimi xatırlanıb. Əshabi-Kəhf ziyarətgahının, imamzadələrin, nəhayət, Peyğəmbər məzarının olduğu bu müqəddəs torpaqda əsrimizin problemlərindən biri hesab edilən astma xəstəliyinə şəfa verən təbii mağaranın olması bizə çox şeyi izah edir. Əshabi-Kəhf mənəvi zənginliyimizi artırır, Duzdağ isə bizə şəfa bəxş edir. Necə deyərlər, Böyük Yaradan Naxçıvanı xilaskarlıq yurdu seçib. Azərbaycanı bəlalardan xilas edən ulu öndərimiz Heydər Əliyevin də məhz Naxçıvanda boya-başa çatması bu mənada təsadüfi deyil...

**Rauf ƏLİYEV**

*Ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda kənd təsərrüfatının ən geniş yayılmış sahələrindən olan meyvəçiliyin və tərəvəzçiliyin inkişafına göstərilən dövlət qayğısı ildən-ilə artmaqdadır. 2012-2015-ci və 2016-2020-ci illəri əhatə edən iki dövlət proqramının qəbul edilməsi bunun bariz ifadəsidir.*

# Naxçıvan göycəsi



Əhalinin meyvə, tərəvəz və üzüm məhsulları ilə dolğun təmin olunması, həmin məhsulların ixracı, nəticədə, kənd əhalisinin məşğulluğunun artırılması və maddi rifah halının yüksəldilməsi əsas istiqamət kimi götürülən birinci proqramın icrası uğurla başa çatdırılmış, hazırda ikinci proqram həyata keçirilməkdədir.

Regionda meyvəçilik əhalinin əsas məşğulluq sahələrindəndir. Ərazinin torpaq-iqlim şəraiti müxtəlif giləmeyvə, meyvə ağaclarının tez böyüməsi, inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Bu meyvələr içərisində göycənin öz yeri var.

İstərdik ki, göycənin botaniki, biomorfoloji, aqrobioloji xüsusiyyətləri və digər məsələlər barədə oxuculara bir qədər məlumat verək.

*Botaniki xüsusiyyətləri.* Muxtar respublikada gülçiçəklikimilər fəsiləsinin alça sortuna daxil olan 4 növü vardır. Bunlar alça-gavalı, göyəm, Naxçıvan alçası və ev alçası növləridir. Elmi dəlillərlə güman edilir ki, Naxçıvan göycəsi xalq seleksiyası yolu ilə Naxçıvan alçası növündən yaradılmışdır. Bundan başqa, yabanı növlərin meşə və kolluq ərazilərimizdə bitən onlarca formalarına da rast gəlinir. Çəyirdəkli meyvələrdən ərazimizdə ev alçası növünün ağ alça, qızıldamcı, qırmızı alça, təbərzə, sarı alça və sair sortları da yayılmışdır.

Naxçıvan göycəsi becərildiyi ərazinin və faraş yeyildiyi məhsulun rənginə müvafiq olaraq adlandırılmışdır. "Göycə" sözü göyümtül mənasında olmaqla bərabər, yeni, təzə mənasını da ifadə edir. Bu meyvə yazda ilk yeyilən meyvə sortlarından biridir. Onu da qeyd edək ki, "göycə" sözü yalnız Naxçıvan dialektinə aiddir. Yəni göycənin vətəni Naxçıvan olduğu üçün bu söz bu bölgədən başqa heç bir yerdə işlədilmir və ədəbi dildə də rast gəlinmir. Hələ VII əsrə aid səyyahların xatirələrində Naxçıvan göycəsi haqqında məlumatlar var.

Maraqlıdır ki, Naxçıvan göycəsi hazırda Azərbaycanın digər bölgələrində, xüsusilə Abşeron və Gəncə-Qazax bölgələrində yayılsa da, həmin məhsulun biomorfoloji xüsusiyyətləri Naxçıvan düzənliyi ərazisində becərilən sortun biomorfoloji xüsusiyyətləri ilə eyni deyil. Əsasən Arazboyu maili düzənlik ərazilərdə Naxçıvan göycəsi sortundan ibarət bağların salınması üçün olduqca əlverişli torpaq-iqlim şəraiti, ekoloji mühit mövcuddur.

Naxçıvan göycəsinin irihəcmli plantasiyalarının salınması ilkin mərhələdə meyvə-tingçilik təsərrüfatının yaradılması zərurətini ortaya qoymuşdur. İndiki dövrdə muxtar respublikada ən tezyetişən kənd təsərrüfatı məhsullarının ixracının artırılmasında, xarici bazarlarda rəqabətədavamlı məhsulların satılmasında Naxçıvan göycə sortundan istifadə olunması, ixtisaslaşdırılmış fermer təsərrüfatlarının yaradılması, toplanan məhsulların saxlanılması, beynəlxalq standartlara uyğun qablaşdırılması və ixracının təşkili məqsədəuyğundur və muxtar respublikaya xarici valyuta axınını artıra bilər.

*Biomorfoloji xüsusiyyətləri.* Naxçıvan göycəsi ən çox düzənlik və orta dağlıq ərazilərdə becərilir. Naxçıvan şəhərində, Babək qəsəbəsində, Qaraçuq, Tumbul, Zeynəddin, Şıxmahmud və sair kəndlərdə daha tez ərsəyə gəlir. Ağacları orta hündürlükdə (2,5-3,5 metr) olub yazda yarpaq açılmamışdan əvvəl çiçəkləyir. Ağaclarda çoxlu çiçək əmələ gətirir. Ancaq bu çiçəklərin əksəriyyəti tozlanmadan sonra tökülür. Meyvələri may ayının ortalarında istifadə həddinə çatır. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyunun axırı, iyulun ortalarında tam yetişir. Meyvələri kürəşəkilli, üst və alt hissələrdən basıqdır, həmin nahiyələri bir şırım birləşdirir. Meyvələrinin qabığı qalındır, rəngi ilk vaxtlar göyümtül olur. Lətli hissə qalındır. Hər meyvədə bir ədəd kiçik toxum olur. Məhsulu tam yetişdikdə isə lətli hissə daha çox sulanır, şirinləşir və rəngi saralır. Çoxillik ağaclar, adətən, 10-25 il normal məhsul verir. Hər bir ağacdan ildə, təqribən, 50 kiloqrama qədər məhsul toplanılır. Onu da qeyd edək ki, ağaclar 35 dərəcəyə qədər şaxtaya tam dözümlüdür. Naxçıvan göycəsi, adətən, yazda, yayda və payızda müxtəlif calaq üsulları ilə çoxaldılır. Calaqaltı kimi çəyirdəkli meyvələrin tingləmindən istifadə edilir. Calaqetmədə albuxara ağacından istifadə etdikdə meyvələri nisbətən iri və şirin, badam ağacına calaq edildikdə isə ağacları uzunömürlü olur. Toxumla çoxaldıla bilməz, çünki bu sortun toxumları təbii hibrid genotipinə malikdir. Toxumla çoxaldıqda genotipdəki irsi əlamətlər də parçalanma verir və nəticədə, yerli alça formaları meydana çıxır.

*Aqrobioloji xüsusiyyətləri.* Fərdi təsərrüfatlarda Naxçıvan göycəsi başqa meyvə sortları ilə birlikdə becərilir. Aqrotexniki qulluğa tələbkardır. Calaq edildikdən 2-3 il sonra məhsul verməyə başlayır. Ağaclarda erkən yazda lazım olan qaydada quru budama aparılmalıdır. Ağacların çətirinə elə forma verilməlidir ki, şah budaq və ətraf budaqlar bir-birindən 50-60 santimetr aralı olsun, yarpaqlama və çiçəkləmə vaxtı çətir daxilinə Günəş şüası düşsün, normal havalanma getsin. Naxçıvan göycəsi çox məhsuldar sortdur. Məhsulu çox olanda meyvələri normal ölçüyə çata bilmir və modifikasiya dəyişkənliyinə uğrayaraq parametrləri kiçilir. Ona görə də hər il ağaclar üzərində normal bar yükü saxlanılması məqsədəuyğundur.

*Məhsulundan istifadə olunması.* Naxçıvan göycəsi normal aqrotexniki becərilmə şəraitində hər il yüksək məhsul vermək xüsusiyyətinə malikdir. Ən tez yeyilən meyvə sortudur. Məhsulu, adətən, meyvələri yumşalmağa başlayan dövrdən növrəst məhsul kimi yeyilməyə başlanılır. Meyvələri avqust ayının əvvəllərində tam yetişkənliyə çatanda daha çox sulanır, şirinləşir. Belə meyvələrdən göycə qurusu məhsulunun alınması üçün istifadə edilir. Xüsusi qaydada hazırlanan göycə qurusu xoşagəlim əmtəə görünüşünə malik olmaqla, nisbətən şirin olur. Qış dövrü xüsusi yeməklərin hazırlanmasında, kulinariya sahəsində qiymətli məhsul kimi göycə qurusundan geniş istifadə olunur.

*Klon və variasiyaları.* Bu meyvə Naxçıvanda qədimdən becərildiyindən ərazidə çoxlu variasiyaları meydana gəlmişdir. Göycə genetik baxımdan əlverişli torpaq-iqlim şəraitinə modifikasiyalaşma yolu ilə daha tez uyğunlaşma xüsusiyyətinə malikdir. Torpaq-iqlim şəraitinin, ekoloji mühitin təbii mutagen təsirlərinə qarşı daha tez reaksiya verən Naxçıvan göycəsinin muxtar respublikada 5-dən çox variasiyalar bir-birindən yetişmə müddətinə, meyvələrinin parametrlərinə, keyfiyyətinə, dadına, şirinliyinə və sair genetik xüsusiyyətlərinə görə fərqlənirlər.

Dünyanın heç bir yerində bənzəri olmayan bu neməti qorumaq və tanıtmaq bizim borcumuzdur. Çünki becərilmə tarixi VII əsrə çatan Naxçıvan göycəsi yalnız Naxçıvanda öz xüsusi keyfiyyətini qazana bilir. Düzdür, Azərbaycanın digər bölgələrində də müxtəlif alça ağaclarına rast gəlinir, ancaq alçanın Naxçıvan göycəsi sortunun əmtəə görünüşü və keyfiyyəti, dadı tamamilə fərqlidir.

***Naxçıvan göycəsinin tanıdılması, brend məhsula çevrilməsi üçün muxtar respublikada "Naxçıvan göycəsi festivalı"nın keçirilməsi regionda meyvəçiliyin inkişaf etdirilməsinin, genişləndirilməsinin, ümumiyyətlə, bağçılıq mədəniyyətinin dünya standartları səviyyəsinə yüksəldilməsinin bariz nümunəsidir. Ölkəmizdə və dünyada belə bir təcrübə vardır. Məsələn, Göyçayda "Nar", Türkiyənin Antalya şəhərində "Portağal", Adana şəhərində "Qarpız" festivalları keçirilir. Muxtar respublikada "Naxçıvan göycəsi festivalı"nın keçirilməsi yerli meyvə sortlarımızın təbliği üçün gələcəkdə "Ordubad əriyi", "Naxçıvan üzümü" festivallarının keçirilməsinə də zəmin yaradır.***

**Varis QULİYEV**
*aqrar elmlər üzrə elmlər doktoru*

# Maarifləndirici tədbir

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Azərbaycan xalçaları" mövzusunda maarifləndirici tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə xidmətin əməkdaşı Rahib Kərimov açıb. Bildirib ki, Azərbaycan xalçalarının böyük bir qolunu Naxçıvan xalçaları təşkil edir. Naxçıvan özünün memarlıq, incəsənət məktəbləri, köklü təhsil ənənələri ilə yanaşı, xalçaçılıq sənəti ilə də dünyada tanınıb. Vaxtilə evlərdə palaz, kilim, sumax, vərni, şəddə, zilli və cecim kimi xalça növləri toxunub, xalçatoxuma sənəti inkişaf etdirilib. Hal-hazırda bu sənət dövlətimizin dəstəyi ilə yaşadılır.

Naxçıvanda xalçaçılıq sənətinin tarixi haqda slaydların nümayiş etdirildiyi tədbirdə Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova iştirakçıların diqqətinə çatdırıb ki, Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus şux rəng çalarları ilə zənginləşdirən Naxçıvan xalçaları bu gün də dəyərini saxlamaqdadır. Naxçıvanın Şərur, Şahbuz, Ordubad, Culfa bölgələrində daha geniş yayılan xalça sənəti xalq yaradıcılığı növlərindən biri kimi diqqəti cəlb edir.

Vurğulanıb ki, Azərbaycanda, o cümlədən Naxçıvanda istehsal edilən iriölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə olunub. Arxeoloji qazıntılar zamanı əldə edilən ibtidai gil cəhrələr və sümükdən hazırlanan iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiqləyir. Orta əsr müəllifləri Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar veriblər. Bu da xarakterikdir ki, Naxçıvan xalçalarındakı həndəsi və nəbati formalı naxışlara, mifoloji cizgilərə bu ərazidəki tarix və mədəniyyət abidələrində də rast gəlinir.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Naxçıvan Dövlət Xalça Muzeyində olublar.

**Səbuhi HÜSEYNOV**

# Görkəmli bəstəkarın yubileyi qeyd edilib

***Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində görkəmli bəstəkar Qəmbər Hüseynlinin yaradıcılığına həsr olunmuş tədbir keçirilib. Bəstəkarın həyat və yaradıcılığını əks etdirən videoslaydın nümayişi ilə başlanan tədbirdə məktəbin direktoru Əbülfət Babayev çıxış edərək Qəmbər Hüseynlinin həyat və yaradıcılığı haqqında danışıb.***

Bildirilib ki, Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə anadan olub. 1925-ci ildə Gəncədəki birinci dərəcəli məktəbdə təhsil almağa başlayıb. 1927-ci ildə Gəncə Orta İxtisas Musiqi Məktəbinin tar sinfinə qəbul edilib. 1929-cu ildə Gəncə Pedaqoji Texnikumuna daxil olub. 1934-cü ildə texnikumun tar sinfini fərqlənmə diplomu ilə bitirən Qəmbər Hüseynli pedaqoji təhsilini Bakıda davam etdirib. İki il müddətində Bakı Musiqi Texnikumunda, tanınmış musiqi pedaqoqu A.S.Şvartsın violonçel sinfində təhsil alıb. O, görkəmli dramaturq Cəfər Cabbarlının sözlərinə "Tellər oynadı" romans-mahnısını bəstələyib və bu gözəl vokal əsəri ilə istedadlı bəstəkar olacağı ümidini yaradıb. Gənc bəstəkar 1951-ci ildə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin Bəstəkarlıq şöbəsinə daxil olub və 1954-cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib. Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romans janrları mühüm yer tutur. Unudulmaz sənətkarın romans lirikasının zirvəsi sayılan "Ay işığında", "Gecələr uzanaydı", "İlk məhəbbət","Düşür yadıma", "Güləgülə" və sair əsərlərindəki zərifliyə heyran qalmamaq mümkün deyil. Bəstəkarın 1948-ci ildə bəstələdiyi "Cücələrim" mahnısı bütün dünyada geniş yayılaraq əsl sənət incisinə çevrilib.

Məktəbin müəllimi Aygün Əliyeva çıxış edərək bildirib ki, Qəmbər Hüseynli o qədər də uzun ömür yaşamasa da, öz əsərləri ilə gələcək nəsillərə Vətən sevgisi, təbiətimizə, el-obamıza məhəbbət hissləri ilə dolu zəngin musiqisini yadigar qoyub. Qısa həyat və yaradıcılıq yolunda öz istedadına inanan və güvənən, insanlara musiqisi ilə sevgi və məhəbbət bəxş edən görkəmli bəstəkarın əsərləri bundan sonra da musiqi zövqümüzün zənginləşdirilməsinə xidmət edəcək, xatirəsi qəlblərdə yaşayacaqdır.

Tədbir görkəmli bəstəkarın əsərlərindən ibarət konsert proqramı ilə davam etdirilib.

**Fatma BABAYEVA**

# Futbolçular Naxçıvanın görməli yerləri ilə tanış olublar

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Futbol Federasiyasının və Azərbaycan Peşəkar Futbol Liqasının birgə təşkil etdiyi "Heydər Əliyev kuboku" uğrunda futbol turniri davam edir. Azərbaycanda ilk dəfə keçirilən turnirin finalçıları artıq məlumdur. Belə ki, həlledici qarşılaşmada "Neftçala" və MOİK klubları üz-üzə gələcəklər.

Dünən istirahət edən komandaların asudə vaxtlarının səmərəli təşkili istiqamətində onların muxtar respublikanın tarixi, görməli yerlərinə gəzintiləri təşkil edilib, bu yerlər barədə onlara ətraflı məlumatlar verilib. Əvvəlcə iştirakçı komandaların məşqçiləri və futbolçuları Duzdağ Fizioterapiya Mərkəzi ilə yaxından tanış olublar. Daha sonra onlar "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət ediblər. İştirakçılar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və Şahbuz Dövlət Təbiət Qoruğunda yerləşən Batabat yaylağında da olublar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 410